# Gənclərin "yaşıl təşəbbüs"ləri COP29-a əlavə rəng qatacaq



**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyaları dünyada olduqca əhəmiyyətli tədbir hesab olunur. Təbiətin və ətraf mühitin qorunması, yaşıllıqların salınması, biomüxtəliflik, "yaşıl enerji" və digər prioritet sahələr bu sessiyaların əsas mövzularıdır.**

Bu beynəlxalq tədbirin növbəti sessiyasının (COP29-un) ölkəmizdə keçirilməsi isə bütün avantajları ilə bərabər, gənclər üçün də geniş imkanlar yaradır, xüsusən gənclər arasında beynəlxalq miqyasda birgə təşəbbüs və əməkdaşlıq üçün perspektivlər açır. Bu gün iqlim dəyişikliyi ilə mübarizə təkcə hökumətlər və böyük şirkətlər tərəfindən deyil, həm də gənc nəsillər tərəfindən həyata keçirilir. Gənclərin iqlim müzakirələrində fəal iştirakı bu problemin həllində mühüm rol oynayır. Bu baxımdan COP29 konfransının Azərbaycanda keçirilməsi gənc fəallar və liderlər üçün qlobal iqlim siyasətinə töhfə vermək baxımından mühüm platformadır.

Gənclərin belə qlobal tədbirdə fəal iştirak etməsinin çox böyük önəmi var. Onlar iqlim dəyişikliyi ilə mübarizədə müasir texnologiya və innovasiyaları təqdim etmək potensialına malikdirlər. Gənclər COP-a yaradıcı yanaşmaqla ənənəvi üsullardan kənara çıxaraq daha səmərəli strategiyaların hazırlanmasına kömək edə bilirlər. Beləliklə də, səslərinin eşidilməsi və qlobal iqlim siyasətlərinə inteqrasiya etmək üçün mükəmməl fürsət qazanmış olurlar.

COP29-da bir çox gənc lider və fəal müxtəlif panel və tədbirlərdə çıxış edəcək, üstəlik, yaşadıqları regionda iqlim təşəbbüslərini və uğur hekayələrini bölüşəcək, digər gəncləri bu istiqamətdə iş görməyə, təşəbbüs göstərməyə, təklif verməyə sövq edəcəklər. Konfrans zamanı gənclər arasında şəbəkələşmə imkanlarının təmin olunacağını da əlavə etsək, gələcək əməkdaşlığın təməlinin qoyulacağına şübhə qalmır.

Azərbaycanda gənc iqlim fəalları COP29-la bağlı özlərinin proqram və layihələrini vaxtaşırı müzakirə edirlər. Həmin müzakirələrdə lider gənclərin işini dəstəkləmək və həvəsləndirmək üçün təşəbbüslər irəli sürülür. Bu təşəbbüslər gənclərə iqlim dəyişikliyi ilə bağlı layihələr hazırlamağa və beynəlxalq platformalarda təqdim etməyə imkan verir. İki gün öncə "İslam Əməkdaşlıq Təşkilatı Modeli - Beynəlxalq Münasibətlər Akademiyası" layihəsinin növbəti 2024-cü il mərhələsini qeyd etmək yerinə düşər. İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Bakıdakı Avrasiya Regional Mərkəzi, Gənclər və İdman Nazirliyinin birgə tərəfdaşlığı ilə həyata keçirilən bu layihədə hazırda 100-dən çox gənc iştirak edir. Tədbirin əsas mövzusu COP29, ətraf mühitin qorunması və "yaşıl dünya" problemləridir.

Tədbirdə Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycandakı səfiri Məhəmməd Murad Əl Blaşi "COP28 dövründə BƏƏ-nin iqlim diplomatiyasında liderliyi", Braziliyanın Azərbaycandakı səfiri Manuel Lopes da Kruz "COP30-a gedən yolda çağırışlar və imkanlar", Milli Məclisin deputatı, BMT-nin Azərbaycan COP29 iqlim dəyişikliyi üzrə yüksəksəviyyəli nümayəndəsi Nigar Arpadarai və COP29-un Azərbaycan Gənc İqlim Çempionu Leyla Həsənova "İqlim dəyişikliyi ilə mübarizədə gənclərin rolu və "yaşıl dünya"nın qorunması: Azərbaycanın COP29 siyasəti" mövzuları üzrə çıxış ediblər.

Gənclərin COP29 çərçivəsində gördüyü işlər iqlim fəallarının nə qədər savadlı, müasir düşüncəli, bu günün pəncərəsindən sabaha inamla baxan olduqlarını, elm, təhsil və innovasiyanın köməyi ilə gələcəyə inamla addımladıqlarını göstərir. COP29 davamlılıq və ətraf mühitin mühafizəsi sahəsində mühüm addımların atıldığı beynəlxalq platforma olduğu üçün belə fəal gənclərin "yaşıl təşəbbüs"ləri tədbirin işinə rəng qatacaq. Bu cür təşəbbüslər irəli sürən gənclər iqlim dəyişikliyi ilə mübarizədə mühüm addımlar atmağa davam edəcək və gələcək üçün istiqamət verəcəklər.

Gənclərin beynəlxalq səviyyədə iştirakını dəstəkləmək üçün BMT İqlim Dəyişikliyi üzrə Gənclərin Məşvərət Qrupunu yaradıb. Məqsəd onların iqlim hərəkatlarını və təkliflərini qurum rəhbərliyinə əlçatan etmək, bu sahədə məsləhət və töhfələr vermək üçün iqlim strategiyasını həyata keçirməkdir. BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi Vladanka Andreeva "Baku Decides" Gənclərin I İqlim Danışıqları"nın açılış mərasimində çıxış edərkən demişdir ki, COP29-a gənclərin cəlb edilməsində daha bir addım irəli gedə biləcəyik.

COP29-a hazırlıqlar çərçivəsində görülən işlərdə gənclərin fəal iştirakı əsas verir deyək ki, dünyamızın sabaha sağlam ötürülməsi istiqamətində onların da payı var. Gənclər ekoloji sağlam cəmiyyətdə yaşamaq istəyirlər. Ona görə də ətraf mühitin mühafizəsi ilə bağlı görülən tədbirlərdə üstünlüyü əldən verməməyə çalışırlar. Şübhə yox ki, ekoloji maarifləndirmənin gücləndirilməsində və ekologiyanın cəmiyyət tərəfindən sağlam həyat tərzinin bir hissəsi kimi qəbul edilməsində gənclərin rolu COP29-un keçiriləcəyi günlərdə daha əyani görünəcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 22 may, № 106.- S.8.